**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2024.2.107**

**ZEYNƏB QULİYEVA**

# I XƏLƏC YAŞAYIŞ YERİNİN ERKƏN DƏMİR DÖVRÜ TƏBƏQƏSİ

*Məqalədə I Xələc abidəsinin Dəmir dövrünə aid yeni tapıntıları araşdırılmışdır. Onlar 2024-cü ildə abidədə aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuşdur. Təqribən 4 metr dərinliyədək davam etdirilmiş qazıntılar yaşayış yerində 3 ayrı təbəqənin bir-birini izlədiyini göstərməklə, mədəniyyətlərarası keçid prosesini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalədə onlardan birinin – Erkən Dəmir dövrü təbəqəsinin materialları əsasında bu dövrdə formalaşmış arxeoloji mədəniyyətin özünəməxsus xüsusiyyətləri müəyyənləşdirilmişdir.*

**Açar sözlər:** *Erkən Dəmir dövrü, I Xələc yaşayış yeri, yeni tapıntılar, keramika.*

**Giriş.** Erkən Dəmir dövrünün özünəməxsus xüsusiyyətlərinin müəyyənləşdirilməsində keramika məmulatı təyinedici atributlardan birini təşkil edir. Azərbaycan Respublikasının cənub-qərb bölgəsini təşkil edən Naxçıvan diyarında bu dövrə aid keramikanın bir qismi çəhrayı, qırmızı (Paya dərəsi, I Kültəpə, Qızılburun), digər qismi boz-qara rəng koloritinə malik olması ilə fərqlənir (I və II Dəmirçi nekropolları, Zeyvə nekropolu, Sədərək yaşayış yeri). Son dövrlərin tədqiqatları zamanı ikinci qrupa aid keramika kolleksiyası daha da zənginləşdirilmişdir. Bu baxımdan 2024-cü ildə I Xələc yaşayış yerlərindən aşkar edilən Dəmir dövrü keramikası xüsusi əhəmiyyət kəsb edir.

I Xələc yaşayış yeri Şərur rayonunun Xələc kəndindəki dağlıq ərazidə yerləşir. Ötən əsrin 80-ci illərində qeydə alınmış yaşayış yerində, AMEA-nın müxbir üzvləri V.Əliyev, V.Baxşəliyev, professor A.Seyidov tərəfindən müxtəlif dövrlərdə arxeoloji tədqiqatlar aparılmış və çoxtəbəqəli olduğu müəyyən edilmişdir [2, s. 128; 9, s. 63-64]. Yaşayış yerindən Neolit, Eneolit, Tunc dövrü keramikası ilə yanaşı Dəmir dövrünə aid nümunələr də əldə edilmişdir.

2024-cü ilin aprel ayında aparılan kəşfiyyat araşdırmaları zamanı bu ərazidən toplanan yerüstü materialların bir qismini Dəmir dövrünə aid qara rəngli keramika fraqmentləri təşkil edirdi [6, s. 62]. Bu nümunələrin aid olduğu mədəni təbəqənin üzə çıxarılması, həmçinin digər arxeoloji mədəniyyətlərlə əlaqəsinin öyrənilməsi üçün burada arxeoloji qazıntılara ehtiyac var idi. 2024-cü ildə yaradılmış Xələc arxeoloji ekspedisiyası məhz bu zərurətdən irəli gəlirdi. Ekspedisiya tərəfindən iyun iyul aylarında I və II Xələc abidələrində arxeoloji qazıntılar aparılmışdır (2024-cü ildə AMEA Naxçıvan Bölməsində dosent Z.Quliyevanın rəhbərliyi ilə yaradılmış Xələc arxeoloji ekspedisiyasının apardığı qazıntılarda Bölmə əməkdaşlarından S.Əliyev, Ə.Tağıyev, A.İsmayılova, H.Abbasov, N.Əliyeva, Ş.Zalova və NDU-nin əməkdaşı R.Rzayeva iştirak etmişdir).

**I Xələc yaşayış yerində arxeoloji qazıntılar.** Xələc dağı və ətrafındakı geniş ərazini əhatə edən bu abidədə mədəni təbəqələrin qalınlığının müəyyənləşdirilməsi məqsədi ilə, buradakı köhnə qəbiristanlıqdan xeyli aralıda, dağın ətəyində, kənd yolunun sağ tərəfində 10×10 m. ölçüdə qazıntı sahəsi açıldı (Məqalədə Xələc arxeoloji ekspedisiyasının 2024-cü ildə apardığı tədqiqatların çöl qeydiyyatlarından istifadə edilmişdir). Qazıntı sahəsi kollardan təmizləndikdən və üzərindəki boş torpaq qatı götürüldükdən sonra 0,5 sm qalınlıqda olmaqla təbəqə-təbəqə qazılmağa başladı. Yer səthindən 95 sm dərinliyə qədər yalnız qumlu torpaqdan ibarət idi və tək-tək keramika ilə təmsil olunurdu (şəkil 1).



**Şəkil 1.** I XA sahəsində qumlu təbəqə.

Qum qatını keçib altdakı mədəni təbəqələri tapmaq məqsədi ilə qazıntı sahəsi 2 hissəyə ayrıldı və şimal yarısında qazıntılar dərininə doğru davam etdirildi. Təqribən 1,2 metr dərinlikdə qumlu qat sarı rəngli torpaq təbəqə ilə əvəz olunmağa başladı. Bu təbəqədə keramikanın miqdarı artsa da müxtəlif dövrləri əks etdirməsi mədəni təbəqənin qarışdığından xəbər verirdi. Ehtimal ki, Orta əsrlər dövründə buradan qəbiristanlıq kimi istifadə edilmiş və məhz bu səbəbdən təbəqələr dağıdılmışdı. Bu fikir qarışıq halda üzə çıxarılan skelet qalıqları ilə də təsdiqlənirdi. Qarışıq təbəqə çox da qalın deyildi və 1,5 metrdən sonra qırmızı rəngli təbəqə ilə əvəz olundu. Bu qat Dəmir dövrünə aid nümunələrin çoxluğu ilə fərqlənirdi. Təqribən 2,8-3,5 metr dərinlikdə torpağın rənginin açıq yaxud solğun yaşıl rəngə doğru dəyişdiyi izlənilirdi. Bu təbəqədən Kür-Araz mədəniyyətin boz rəngli, dairəvi batıqlı və digər əlamətlərini daşıyan keramika fraqmentləri üzə çıxarıldı. Onlardan alt təbəqədə boyalı qab çeşidləri üzə çıxmağa başlamışdı. Qazıntı mövsümünün başa çatmasını nəzərə alaraq, sahədə 2×2 ölçüsündə şurfda qazıntılar 4 metr dərinliyə çatdırıldıqda keramika miqdarı azalmış, küllü təbəqə nəm torpaq qatı ilə əvəz olunmuşdu. Şurfda təbəqələrin bir-birini əvəz etməsi torpağın rənginin dəyişməsi şəklində aydın izlənilir (şəkil 2).



**Şəkil 2.** IXA sahəsindəki şurf.

Qazıntı sahəsinin ən qalın təbəqəsinin tapıntıları daş qutu qəbirə, daş divar qalıqlarına və boz-qara rəngli parlaq cilalı keramika nümunələrinə aid qalıqlar təşkil edir ki, bu da Erkən Dəmir dövrü təbəqəsini kompleks halda tədqiq etməyə imkan verir.

**Metod və material.** IXA sahəsində Erkən Dəmir dövrünün özünəməxsus xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün ilk növbədə bu dövrə aid mədəni təbəqənin qalınlığı ölçüldü. Bu təbəqə yer səthindən 1,5 metr dərinlikdə üzə çıxan açıq yaşıl rəngli torpaq layları ilə təmsil olunur və 2,8 metrədək davam edir. Təbəqənin başlıca tapıntıları daş qutu qəbir, divar qalıqları və keramika ilə təmsil olunmuşdur.

**Daş qutu qəbir (A-027)** yer səthindən 230 sm dərinlikdə üzə çıxarıldı. Bir divarı sağlam şəkildə qalıb. İri ölçülü daş düzümünün hamar tərəfləri içəriyə tərəf qoyulmuşdur. Qəbirin içərisinə 0,3-0,4 sm qalınlıqda gil suvaq çəkilmişdir. Qızarmış suvaq çox yerdə qopsa da, az miqdarda qalmışdı və boz rəngli idi. Digər hissələr kvadratın kəsiyindən kənara çıxdığından qəbirin ölçüsü döşəməni çevrələyən sərt təbəqəyə əsasən müəyyənləşdirildi. Uzunu 1.85 sm, eni 90 sm, dərinliyi 50 sm. Qəbir cənub-şərqdən şimal-qərbə doğru istiqamətdədir. İçərisində xeyli kül qalıqları və 6 ədəd qab aşkar edilmişdir. Qablardan üçü cənub şərq küncündə, toplu şəkildə qoyulmuşdu. Onlardan biri bütöv qalıb. Ağzı qərbə doğru olan bu qab gövdəsində

yuvarlaq qabartma ornamentlər və qulpu olan qara rəngli kiçik küpədir. İkincisi çömlək tipli qabdır. Ağzı qərbə doğrudur. Çox kövrəkdir, səthi çərtmələrlə naxışlanıb. Üçüncüsü parlaq cilalı iri fraqmentlər halındadır (şəkil 3).




**Şəkil 3.** IXA sahəsindəki daş qutu qəbirin avadanlıqları.

Qəbirin şimal tərəfində daha 4 qab qoyulub. Onlardan biri döşəməyə basdırılmış, kənarları sərt təbəqəylə çevrələnmişdir. Qab çox kövrək olduğundan yalnız konusvari oturacaq hissəsi bütöv halda çıxarıldı, qalan hissələri fraqmentlər şəklində toplandı. İkinci nümunə kiçik ölçülü kasanın ağız və gövdə hissələri ilə təmsil olunurdu. Üçüncüsü iri ölçülü qabın gövdənin bir hissəsinə aid olub, divarda şaquli vəziyyətdə qoyulmuşdu. Dördüncüsü kiçik həcmli olub, oturacağının diametri 8 sm, gövdənin diametri 12 sm-dir.

**Divar qalığı (A-028).** Qazıntı sahəsinin şərq hissəsində üzə çıxarılan divar qalığı cənub-şərqdən şimal-qərbə doğru uzanan iki cərgəli daş düzümləri ilə təmsil olunur. Onun ətrafında 1 ədəd qara rəngli ağız fraqmenti, 1 ədəd qara rəngli gövdə fraqmenti, 3 ədəd qırmızı, 2 ədəd sarı-çəhrayı rəngdə keramika və sümük qalıqları aşkar edildi.

**Keramika fraqmentləri.** Bu təbəqədən aşkarlanan keramika nümunələri boz-qara rənglidir. Qum tərkiblidir və yaxşı bişirilmişdir. Əksəriyyətinin səthi parlaq cilalanıb. Hazırlanma texnologiyasına görə oxşar olsalar da tipoloji və ornamental baxımdan fərqlənirlər (şəkil 4).

Bu təbəqədən aşkar olunan keramika fraqmentləri içərisində çölmək və kiçik həcmli kasa tipli qablara aid nümunələr üstünlük təşkil edir. Bütöv halda olan qablar az saydadır. Onlardan biri kiçik küpə, digəri isə hər iki tərəfi açıq olan və mərkəzdən hər iki qurtaracağa doğru genişlənən qabdır.

Keramika nümunələrinin bir qismi sadədir, digər qisminə xaricdən, bəzən də daxildən xəfif kannelyur naxışlar çəkilmişdir. Bəzi nümunələrdə paralel xətlər kompleksi, dalğavarı xətlər şəklində basma naxışlara da rast gəlinir.




**Şəkil 4.** Erkən IXA sahəsinin Erkən Dəmir dövrü təbəqəsinə aid qab tipləri.

**Diskussiya.** I Xələc yaşayış yerinin Erkən Dəmir dövrü təbəqəsi Arpaçay vadisindəki digər abidələrdən qalınlığı ilə fərqlənir. Bu baxımdan onu I Kültəpənin həmdövr təbəqəsi ilə müqayisə etmək olar. I Kültəpədə mədəni təbəqənin qalınlığı 1,5-2,5 metr olub, e. ə. XI-VIII əsrə aiddir [10, c. 78]. Bu qalınlıq yaşayışın davamlı və uzunmüddətli olduğundan xəbər verir.

Daş qutu qəbir quruluşuna görə Qızılburundan aşkar edilən nümunələrlə oxşarlıq təşkil edir. Lakin Qızılburunda İ.Meşşaninov və Miller tərəfindən aşkar edilən daş qutu qəbirləri üçün kollektiv dəfnlər xarakterikdir [4, s. 16; 2, s. 9]. I Xələcdəki qəbirdə bütöv skelet əldə edilməmişdir. Bu, qəbirin skeletsiz olduğu anlamına gəlməz, amma hər halda gələcək tədqiqatlar və konkret fikirlər üçün bu mövzu hələlik açıq qalır. Keramika qara, qəhvəyi və sarı rəngli gildən hazırlanmışdır. Onlar ayrıca araşdırılacaqdır. Lakin hələlik əldə olunan ilkin nəticə I Xələcin Erkən Dəmir dövrü keramikasında müəyyən özünəməxsus xüsusiyyətlərin olduğunu göstərir. Bu, parlaq cilalı qabların səthinin işlənmə texnikasında, bəzi naxış motivlərində özünü büruzə verir. Bununla yanaşı qabların bir qismi tipoloji baxımdan Aşağı Daşarx, Zeyvə, II Sarıdərə, Oğlanqaladan [2, şəkil 6, 1-2; 11,23; 39, 9], I-II Dəmirçi nekropollarından [6, şəkil 1-2] aşkar olunan qablarla oxşarlıq təşkil edir. Azərbaycanın digər bölgələrinin həmdövr materialları ilə də müəyyən oxşarlıq izlənir. Bu baxımdan I Xələc yaşayış yerindən aşkar olunan hər iki tərəfi açıq qab diqqətəlayiqdir. Belə qablara Culfa [2, şəkil 1,43], Mingəçevir [11, рис. 17] abidələrinin Dəmir dövrü kolleksiyasından məlumdur. Lakin Mingəçevirdəki nümunələrdən biri tam qıfşəkilli, digəri isə boruşəkilli forması ilə fərqlənir. Tipoloji baxımdan bizim nümunə Culfadan tapılan qabla daha yaxındır, lakin gilinin rənginə görə fərqlənirlər (Milli Azərbaycan Tarixi Muzeyinin Arxeoloji fondu). Belə ki, Culfa nümunəsi

çəhrayı rənglidir, yaxşı cilalanıb [2, şəkil 1,43]. Çölmək tipli qablarda Şimal-şərqi Anadolunun həmdövr qabları ilə qismən oxşarlıq [5, fig. 8] olsa da bu, əsasən boz rəngli qablara aiddir.

**Nəticə.** I Xələc yaşayış yerində aparılan araşdırmalar Erkən Dəmir dövrü mədəniyyəti ilə bağlı yeni faktlar əldə etməyə imkan vermişdir. Araşdırmalar göstərir ki, burada Tunc dövrünün mərhələləri və Dəmir dövrü arasında məskunlaşma davamlı olmuş, bu dövrlər arasında əlaqə kəsilməmişdir. IXA qazıntı sahəsində bu təbəqələr aydın izlənilməklə yanaşı, Erkən Dəmir dövründə daha uzunmüddətli yaşayışın olduğunu göstərir. Sözügedən təbəqədə qeydə alınmış daş divar qalıqları, qəbir avadanlıqları, həmçinin çoxsaylı keramika məmulatı Erkən Dəmir dövründə bu regionda özünəməxsus mədəniyyətin formalaşdığını göstərir. Bununla yanaşı həmin tapıntıların bir qismində Azərbaycanın digər bölgələrindən tapılan həmdövr materiallarla oxşarlıq izlənilir. Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik rudimentar çıxıntılar az da olsa burada da istifadə edilmişdir. Lakin I Xələcin Erkən Dəmir dövrü keramikasında uzun müddət ədəbiyyatlarda yalnız Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olduğu qeyd edilən boz-qara rəngli keramikanın fərqli çeşidləri də nəzərə çarpır ki, bu da həmin qrupun yerli variantı sayıla bilər.

## ƏDƏBİYYAT

1. Ayaz G. Doğu Anadolu Demir Çağ Çanak Çömlek Kültür Qrupları: Kısa Bir Deyerlendirme // Seramik Araştırmaları Dergisi, SRMKA, 2020, s. 54-79.
2. Baxşəliyev V. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
3. Baxşəliyev V., Quliyeva Z. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti ilə bağlı yeni tapıntılar: Paya dərəsi nekropolu / Şərqin qapısı – qədim diyar (14 mart 2024-cü ildə keçirilmiş konfransın materialları. Naxçıvan: Əcəmi, 2024, s. 91-100.
4. İbrahimli B., İsmayılzadə Q. Qızılburun nekropolu. Bakı: Elm və təhsil, 2013, 120 s.
5. Işıklı M., Erdem Ü. A group of Early Iron Age pottery from the Erzurum Region // Archäologische Mitteilungen Aus Iran und Turan, 2009, No. 41, pp. 249-268.
6. Quliyeva Z. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti yeni tapıntılar işığında // Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı / 7-8 iyul 2021-ci ildə keçirilmiş beynəlxalq konfransın materialları. Naxçıvan: Əcəmi, 2023, s. 34-39.
7. Quliyeva Z. Xələc abidələri: yerüstü tapıntıları və perspektivlər // Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı. 7-8 iyul 2021-ci ildə keçirilmiş beynəlxalq konfransın materialları. II kitab, Naxçıvan: Əcəmi, 2023, s. 58-67.
8. Quliyeva Z., Əliyev S., Tağıyev Ə., İsmayılova A., Rzayeva R., İsmayılova A., Abbasov H., Əliyeva N., Zalova Ş. Xələc abidələrində 2024-cü ildə aparılmış arxeoloji qazıntılar. AMEA Naxçıvan Bölməsinin arxivi, 125 s.
9. Seyidov A, Baxşəliyev V., Mahmudova V. Xələc. Bakı: Elm, 2010, 220 s.
10. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
11. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур: эпоха энеолита и бронзы. Баку: Изд-во АН Азерб. ССР, 1959, 190 с.
12. Гусейнова. Из Истории Южного Кавказа Ходжалы-Гедабекская Культура Азербайджана (XVI-IX вв до н.□.). Баку, 2011.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: zeyneb.amea@gmail.com***

**Zeynab Guliyeva**

**EARLY IRON AGE LAYER OF THE SETTLEMENT OF KHALAJ I**

The article discusses new finds from the Khalaj I settlement of the Iron Age. New finds were discovered in 2024 during archaeological excavations at the settlement. The excavations, which continued to a depth of approximately 4 meters, show that three separate layers follow each other at the settlement and are of great importance in terms of studying the process of intercultural transition. In the article, using materials from one of them - the Early Iron Age layer, the features of the archaeological culture that formed during this period are determined.

**Keywords:** *Early Iron Age, settlement of Khalaj I, new finds, ceramics.*

**Зейнаб Гулиева**

**СЛОЙ РАННЕГО ЖЕЛЕЗНОГО ВЕКА В ПОСЕЛЕНИИ ХАЛАДЖ I**

В статье рассматриваются новые находки памятника Халадж I периода железного века. Новые находки были обнаружены в 2024 году во время археологических раскопок памятника. Раскопки, продолжавшиеся на глубину примерно 4 метров, показывают, что в поселении следуют друг за другом 3 отдельных слоя, которые имеют большое значение с точки зрения изучения процесса межкультурного перехода. В статье на материалах одного из них – слоя раннего железного века – определяются особенности археологической культуры, сформировавшейся в этот период.

**Ключевые слова:** *ранний железный век, поселение Халадж I, новые находки, керамика.*

*(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 09.09.2024**
**Son variant 27.09.2024**